# Məhəbbət şerləri

## Hara gedirsən?

***Şirin röyamısan, ya xəyalmısan,***
***Min cavab axtaran bir sualmısan.***
***Ümidim, nə yaman sən qocalmısan, -***
***De hara gedirsən, hara gedirsən?!***

***Yolların əvvəli, axırı varmı,***
***Bu payız ömrümün baharı varmı,***
***Çağırsam, harayım, sənə çatarmı,***
***De hara gedirsən, hara gedirsən?***

***Taleyin aldığı həsrətli ilsən,***
***Necə gözləmişəm mən səni bilsən.***
***Sən səyyah deyilsən, yolçu deyilsən,***
***De hara gedirsən, hara gedirsən?***

***Günlərim əriyib, illərim axıb,***
***Başımda nə qədər şimşəklər çaxıb,***
***Mənim bu yıxılmış dünyamı yıxıb***
***De hara gedirsən, hara gedirsən?***

***Sevincim ac qalıb, kədərim doyub,***
***Rəngli günlərimi göz yaşım yuyub.***
***Məni bu kədərin əlində qoyub***
***De hara gedirsən, hara gedirsən?***

## Bu sevgi

*Bu sevgi amandan, ahdan keçibdi,*
*Vaxta nə deyəsən, vaxtdan keçibdi.*
*Bizim qatarımız çoxdan keçibdi,*
*Növbəti qatarda yer varmı görən?*

*Taleyin üzündə qoşa xal kimi,*
*Susub dayanmışıq bir sual kimi.*
*Sabaha baxırıq xoş xəyal kimi*
*Xəyaldan o yana sirr varmı görən?*

*Bizi ayrı salan zaman utanır,*
*Həqiqət önündə güman utanır,*
*Bu eşqi gizlədən duman utanır,*
*Bu duman keçilməz divarmı görən?*

*Niyə illər susdu, aylar kiridi,*
*Vüsal boyun bükdü, hicran yürüdü.*
*Çaylara üz tutduq, çaylar qurudu, -*
*Bu odu söndürən su varmı görən?!*

## Sevdirə bilmədim...

Dəli kimi sevdim gözəl gəlini,
Gül verdim, yandırıb-yaxdı əlini,
Seçib cümlələrin ən gözəlini
Titrəyib söylədim sözümü sənə;
Sevdirə bilmədim özümü sənə...

Həsrəti, vüsalı qoşa sevdirdim,
Üşüyən əynimi qışa sevdirdim,
Yalın ayağımı daşa sevdirdim,
Tanıda bilmədim izimi sənə
Sevdirə bilmədim özümü sənə...

Alışıb yanardım köz istəsəydin
Bir nəğmə olardım söz istəsəydin
Məni görmək üçün göz istəsəydin
Kor qalıb, verərdim gözümü sənə;
Sevdirə bilmədim özümü sənə...

Sənə hər məktubu yazdım qanımla,
Ruhumla, qanımla, həyəcanımla,
Sevinclə ölərdim, əgər bununla
Bağışlasaydım mən ömrümü sənə;
Sevdirə bilmədim özümü sənə...

## De necə inanım?..

**Yenə çiçək tutub çəməni, düzü,**
**Güllərin səndəndir söhbəti, sözü,**
**Bu mavi göyləri, mavi dənizi**
**De, necə yığıbsan, gözünə necə?!**

**Eşqi bir əyləncə, oyun sanırsan,**
**Özün alovlanıb, özün yanırsan,**
**Dünən dediyini bugün danırsan,**
**De, necə inanım, sözünə necə?!**

**Baxıb gül üzünə dan üzü gülər,**
**Dünya üzügülər, sən üzügülər,**
**Gözəllik önündə sınar güzgülər,**
**De necə baxırsan, özünə necə?!**

**Hayana üz tutdum, hayana getdim,**
**Qırılmaz ilqarım, pozulmaz əhdim,**
**Səni sevdiyimi hamıya dedim,**
**De, necə söyləyim, özümə necə?!**



## Zarafatyana

***Sənin yaratdığın mənim könlümə***
***Necə tufan salıb kaş ki, görəydin.***
***Allah, bu qaş-gözün, üzün yerinə***
***Bir az bu gözələ insaf verəydin...***

***Bu elə güldür ki, saralıb, solmaz,***
***Bu elə ulduzdur səhərə qalmaz.***
***Belə müqəddəslik, təmizlik olmaz***
***Bir az işləməyə günah verəydin.***

***Bir qəmli baxmağı könül yasıdı,***
***Sevgi dünyasının üzük qaşıdı,***
***İnsafsız, mürvətsiz su sonasıdı,***
***Mənə bir insaflı timsah verəydin.***

***Yıxır eşq mülkünü o, öz əliylə,***
***Bacara bilmirəm mən bu dəliylə.***
***Nə olar, bu qıza ac gözləriylə***
***Məni yemək üçün iştah verəydin.***

***Qaşları elə bil yağı qılıncı,***
***Bu sevgi ilk deyil, amma sonuncu.***
***Neylirəm, qu tükü olan balıncı***
***Bizə daş üstündə yataq verəydin.***

## Dəlisən, dəli...

*Tez coşub əsməyin var,*
*Heç nədən küsməyin var,*
*Ülfəti kəsməyin var,*
*Sevməli dəlisən, dəli.*

*Məni yoldan saxlayansan,*
*Yol açıb, yol bağlayansan,*
*Gülə-gülə ağlayansan*
*Gülməli dəlisən, dəli...*

*Könül alıb, könül qıran,*
*Nazıyla səbrimi yoran,*
*Sənsiz yaman darıxıram*
*Görməli dəlisən, dəli.*

*Fikrim yox qəlbinə dəyəm,*
*Sən olmasan, kiməm, nəyəm?*
*Gündə yüz yol sənə deyəm:*
*Ay dəli, dəlisən, dəli...*

## İkimiz də

Kim bizə yaxşı deyir,
Yamanıq ikimiz də.
Bir taleyin yazdığı
Romanıq ikimiz də.

Min yol ölüb, doğulan,
Qəm əlində boğulan,
Bir gülüşlə dağılan
Dumanıq ikimiz də.

Nə görüb-götürmüşük,
Fürsəti ötürmüşük,
İnamı itirmişik,
Gümanıq ikimiz də...

Durulub-bulansaq da,
Odlara qalansaq da,
Vüqarlı dolansaq da
Peşmanıq ikimiz də...

Elədik günahı biz,
Gizli çəkdik ahı biz,
Bu hicrana axı, biz.
Peşmanıq ikimiz də;
Düşmanıq ikimiz də...

## Ayrılaq...

**Biz xoşbəxt olmadıq sevənlər kimi,**
**İndi son bahartək sızlar qəlbimiz.**
**Bəlkə bu dünyaya gəlmişik, gülüm,**
**Artıraq dünyanın həsrətini biz.**

**Tənə də, giley də daha da əbəsdir,**
**Bu sirli röyadan ayılaq gərək.**
**Ya sən gecikmisən, ya mən tələsdim**
**İndi sevə-sevə ayrılaq gərək.**

**Könül gizli-gizli yanacaq indi,**
**Bir damla göz yaşın dənizdi mənə**
**Bizə xatirələr qalacaq indi,**
**Sənin xatirən də əzizdir mənə....**

**Biliram, bu həsrət üzəcək səni,**
**Çalış kölgə kimi sürünməyəsən.**
**Gözlərim hər zaman gəzəcək səni**
**Çalış gözlərimə görünməyəsən!..**

## Qonaqtək gələrəm...

*Bir sevgi oyunu oynayıb getdin,*
*De niyə çağırdın oyuna məni.*
*Bir gün qanadımı qıracaqdınsa*
*Almayaydın eşqin göyünə məni.*

*Adımla yanaşı çəkilir adın,*
*Hələ soyumayıb qəlbimdə odun.*
*Sən ki, bu sevgiylə Leyli olmadın*
*Yazdılar Məcnunlar sayına məni.*

*Sən getdin ömrümün işığı söndü,*
*Yorğun xəyallarım torpağa endi.*
*Özün öz əlinlə veribsən indi*
*Həsrətin ilinə, ayına məni.*

*Saxlaya bilmədim, qalmadın, neylim,*
*Alışan könlümə dolmadın, neylim.*
*Bəy kimi qismətim olmadı, neylim*
*Qonaqtək gələrəm toyuna sənin...*

## Qorxuram

*Bu sevgi vüsal yox, həsrət vəd edir,*
*Hər sözü, eyhamı dəmir sədd edir.*
*Gözün «gəl-gəl» deyir, dilin rədd edir,*
*Vallah, bu sevgidən yaman qorxuram.*

*Mən oddan qorxmuram, bu bir ocaqdır,*
*Bir darağacıtək açıq qucaqdır,*
*Eşqim bu ağacdan asılacaqdır,*
*Vallah, bu sevgidən yaman qorxuram.*

*Car çəkib aləmə bildirəcəkdir,*
*Dünyanı üstümə güldürəcəkdir.*
*Ölsəm, bu eşq məni öldürəcəkdir, -*
*Vallah, bu sevgidən yaman qorxuram...*

## İkimizin yerinə...

Bu sevgidən sən qorxursan eybi yox,
Mən sevərəm ikimizin yerinə.
Bu eşq üçün bir gün dara çəksələr
Mən gedərəm ikimizin yerinə...

Min əzabdır sənsiz keçən hər günüm,
Unutmuşam yaxşı, yaman fərqini.
Bu sevginin dağ əridən dərdini
Mən çəkərəm ikimizin yerinə.

Gül deyirəm, gül qəlbinə dəyirəm,
Mən səninçün tanrı yazan şerəm,
Dodaqların inciməsin deyirəm, -
Mən öpərəm ikimizin yerinə...

Taleyimdə son açılan gülümsən,
Süzüb qara gözlərini gülümsə,
Bu sevginin sonu əgər ölümsə
Mən ölərəm ikimizin yerinə.

## Elə tələsdik ki...

**Elə tələsdik ki, mənzil başına,**
**Qayıdıb baxmadıq izimizə biz.**
**Ömürdə o qədər hicran görmüşdük**
**Niyə su vermədik gözümüzə biz?!**

**Ayrı yaşayırdı adımız bir vaxt,**
**Doğmaya dönmüşdü yadımız bir vaxt,**
**Özgəni yandırdı odumuz bir vaxt,**
**İndi su səpirik gözümüzə biz.**

**Xoşbəxt günümüzü gördük röyada,**
**Sevgini gözlədik gəlib oyada.**
**Nə qədər axtardıq... bu gen dünyada**
**Yer tapa bilmədik özümüzə biz...**

## Bilmədim...

Baxdıq göy üzünə bir ulduz axdı,
Susdum, bilirdim ki, susmaq günahdı.
Könül açmağımın çatmışdı vaxtı,
Səni sevdiyimi deyə bilmədim.

Kiprik çalmadım ki, bir an itərsəm,
Gördüm utancaqsan, məndən betərsən
Bəs nə vaxt danışıb, nə vaxt ötərsən,
Niyə köks ötürdün, niyə bilmədim.

Yel əsdi, yarpaqlar pıçıldaşdılar,
Bəlkə yarpaqlar da könül açdılar
Qonub budaqlardan qoşa uçdular
Biz niyə boylandıq göyə bilmədim.

Yazda çiçək geydim, qışda qar geydim,
Ürəyim həsrətdən sızlayan neydi.
Gecə də, gündüz də yolları döydüm,
Ancaq qapınızı döyə bilmədim.

Hicrandan alışdım,ələmdən dedim,
Axı, nə gəlir ki, əlimdən dedim.
Məcnundan danışdım, Kərəmdən dedim,
Səni sevdiyimi deyə bilmədim....